Kazus

1954-cü il: Vinsent Van Qoqun “Gənc kəndlinin portreti” rəsmi İtaliya Dövlətinin 1939-cu il tarixli 1089 saylı Qanunu ilə (bundan sonra Qanun) tarixi və bədii əsər elan edilmişdi. Sahibi cənab Verusio incəsənət əsərlərinin kolleksioneri idi.

28 iyul 1977-ci il: İsveçrə vətəndaşı olan məşhur incəsənət kolleksioneri Ernst Beyeler bu rəsm əsərini cənab Verusiodan 600 milyon italyan lirəsinə və ya təxminə 310,000 avroya almışdı. Cənab Beyeler alqı-satqını cənab Beyelerin adından fəaliyyət göstərən agenti cənab Pierangeli vasitəsilə reallaşdırmışdır.

1 avqust 1977-ci il: Cənab Verusio Qanunun tələbinə əsasən İtaliya Mədəni İrs Nazirliyinə (bundan sonra Nazirlik) alqı-satqı barədə məlumat verdi. Bəyanatda cənab Pierangelinin adı müqavilənin digər tərəfi kimi qeyd olunmuşdu. Cənab Beyelerin adı qeyd olunmamışdı.

1983-cü ilin sonu: Venesiyada Peggy Guggenheim Collection (bundan sonra PGC) rəsm əsərini almaqda maraq göstərdi.

1 dekabr 1983-cü il: Cənab Pierangeli Nazirliyə bəyanat verərək rəsm əsərini cənab Beyelerin adından aldığını bildirdi.

2 dekabr 1983-cü il: Cənab Pierangeli və cənab Beyeler Nazirliyə ikinci bəyanatı verərək, PGC-nin bu rəsm əsərini 2,1 milyon dollara almaq istədiyini bildirdilər.

9 aprel 1985-ci il: Nazirlik rəsm əsərinin yoxlama üçün Venesiyaya aparılmasına icazə verdi.

23 aprel 1986-cı il: Nazirlik qərara aldı ki, rəsm əsəri Modern və Çağdaş İncəsənət Qallereyasında saxlanması üçün müvəqqəti olaraq Romaya göndərilsin, çünki əsl sahibinin kim olması qeyri-müəyyən idi. Bu arada PGC alqı-satqıdan imtina etmişdi.

Yanvar 1988-ci il: Nazirlik cənab Beyelerin rəsm əsərinə iddia olunan sahibliyi ilə əlaqədar cənab Beyelerdən izahat istədi.

Fevral 1988-ci il: Nazilik rəsm əsərinin əldə edilməsinə maraq göstərdi. Lakin bunun üçün onun büdcəsi məhdud idi.

26 fevral 1988-ci il: Mr. Beyeler məktub vasitəsilə Nazirliyə məlumat verdi ki, o, rəsm əsərini 11 milyon dollara İtaliya Dövlətinə satmaq istəyir. Nazirlik cavab vermədi.

2 may 1988-ci il: Cənab Beyeler rəsm əsərini 8,5 milyon dollara PSG-yə satdı. Növbəti gün o, Qanunun tələblərinə əsasən bu barədə Nazirliyə bildiriş təqdim etdi.

1 iyul 1988-ci il: Nazirlik tərəflərə cavab verdi ki, bildiriş Qanunun tələblərinə cavab vermir, çünki cənab Beyelerin rəsm əsərinə hüququ yox idi.

16 sentyabr 1988-ci il: Cənab Beyeler Nazirliyə bank çıxarışlarını göndərdi, bu çıxarışlar göstərirdi ki, cənab Pierangeli rəsm əsərini cənab Beyelerin adından almışdı.

20 noyabr 1988-ci il: Nazirlik 1977-ci il alqı-satqısına münasibətdə üstünlük hüququnu həyata keçirdi. Üstünlük hüququndan gec istifadə olunması bununla əsaslandırıldı ki, müqavilə tərəflərinin əsl kimliyi qeyri-müəyyən idi. 1977-ci il tarixli bəyanatda qeyd edilən məbləğ – 600 milyon italyan lirəsi cənab Beyelerə ödənildi.

1989-1995: Cəna Beyeler üstünlük hüququ haqqında qərarı Lazio Regional İnzibati Tribunalda (bundan sonra RAT), Dövlət Şurasında, Kassasiya Məhkəməsində və Kassasiya Məhkəməsinin işi göndərdiyi Konstitusiya Məhkəməsində mübahisələndirdi. Bütün daxili məhkəmələr cənab Beyelerin iddialarını rədd etdi.

1996-cı il: Cənab Beyeler Avropa İnsan Hüquqları Məhkəməsinə müraciət edərək, sahiblik hüquqlarından maneəsiz istifadəyə təminat verən Konvensiyanın 1 Saylı Protokolunun 1-ci Maddəsinin pozuntusundan şikayət etdi.

Hazırladı: Babək Həmidov